# “Xalq Kapital İnvestisiya Şirkəti”
## Qapalı Səhmdar Cəmiyyəti

31 dekabr 2022-ci il tarixinə
**Maliyyə Hesabatları və**
**Müstəqil Auditorların Rəyi**

## "Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti

## Mündəricat

*Maliyyə hesabatlari*


Rəhbərliyin məsuliyyəti haqqında hesabat ... 1
Müstəqil auditorların rəyi ... 2
Məcmu gəlirlər haqqında hesabat ... 4
Maliyyə vəziyyəti haqqında hesabat ... 5
Kapitalda dəyişikliklər haqqında hesabat ... 6
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ... 7


*Maliyyə hesabatlarına qeydlər*


1. Ümumi məlumat ... 8
2. Əsas mühasibat uçotu siyasətləri ... 9
3. Əqdlər üzrə komissiya gəlirləri ... 17
4. Əmək haqqı və işçilərlə bağlı digər ödənişlər ... 17
5. Ümumi və inzibati xərclər ... 17
6. Faiz gəlirləri ... 18
7. Mənfəət vergisi ... 18
8. Pul vəsaitləri və onların ekvivalentləri ... 19
9. İnvestisiya qiymətli kağızları ... 20
10. Əmlak və avadanlıq ... 21
11. Qeyri-maddi aktivlər ... 21
12. Digər öhdəliklər ... 22
13. Səhmdar kapitalı ... 22
14. Maliyyə və şərti öhdəliklər ... 22
15. Əlaqəli tərəflərlə əməliyyatlar ... 23
16. Maliyyə alətlərinin ədalətli dəyəri ... 24
17. Kapitalın idarə olunması ... 24
18. Riskin idarə olunması siyasətləri ... 25

**31 dekabr 2022-ci il tarixinə bitən il üzrə maliyyə hesabatlarının hazırlanması və təsdiq edilməsi üzrə rəhbərliyin məsuliyyəti haqqında hesabat**

Müstəqil auditorların rəyinin 2 - 3 cü səhifələrdə təqdim olunan və müstəqil auditorların məsuliyyəti ilə əlaqəli şəkildə oxunması tələb olunan bu hesabat "Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Şirkət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin məsuliyyətlərini müvafiq olaraq müstəqil auditorların məsuliyyətlərindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Şirkətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə əməliyyatlarının nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda baş verən dəyişiklikləri düzgün əks etdirən, habelə Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olan maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar olaraq rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl surətdə tətbiqinə;
- Məntiqli və məqsədəmüvafiq qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- Maliyyə hesabatlarında açıqlanmış və izah edilmiş hər hansı mühüm kənarlaşmaların BMHS-ın tələblərinə uyğunluğuna; və
- Şirkətin proqnozlaşdırıla bilən dövr ərzində öz fəaliyyətini davam edəcəyini güman etmək mümkün olmayana qədər maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına.

Rəhbərlik həmçinin aşağıdakılara görə məsuliyyət daşıyır:

- Şirkət daxilində səmərəli və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- Şirkətin maliyyə hesabatlarının BMHS tələblərinə uyğunluğunu təmin etmək məqsədilə Şirkətin maliyyə vəziyyəti barədə hər zaman kifayət qədər dəqiq məlumat verən mühasibat qeydlərinin müvafiq qaydada aparılmasına;
- Normativ mühasibat qeydlərinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aparılmasına;
- Şirkətin aktivlərinin mühafizəsini təmin edə biləcək məqsədəmüvafiq tədbirlərin görülməsinə; və
- Saxtakarlıq hallarının və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

31 dekabr 2022-ci il tarixinə bitən il üzrə aliyyə hesabatları 27 mart 2023-cü il tarixində buraxılmaq üçün Rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

İdarə Heyəti tərəfindən:

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyəti XALQ KAPİTAL İNVESTİSİYA ŞİRKƏTİ Closed Joint-Stock Company Azerbaijan Republic

Cənab Tural Bayramov

İcraçı Direktor
Bakı, Azərbaycan Respublikası

27 mart 2023-cü il

ANR Audit MMC

Qara Qarayev prospekti 84/38
Bakı AZ1096, Azərbaycan
Tel: +99450 223 60 75
www.anraudit.az

# Müstəqil auditorun hesabatı

"Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə

## *Maliyyə hesabatlarının auditinə dair hesabat*

### *Rəy*

Biz "Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Şirkətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

### *Rəy üçün əsaslar*

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### *Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

### *Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti*

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar inamsızlıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrk.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

Bu müstəqil auditor hesabatı ilə nəticələnən audit tapşırığı üzrə tərəfdaş Namiq Abbaslı.

*Namiq Abbaslı*
*Lisenziyalı auditor (Lisenziya nö. 080833)*
ANR Audit MMC

27 mart 2023-cü il
Bakı, Azərbaycan Respublikası

# "Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti

## 31 dekabr 2022-ci il tarixinə bitən il üzrə məcmu gəlirlər haqqında hesabat
***(Azərbaycan manatı ilə)***

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixinə bitən il | 31 dekabr 2021-ci il tarixinə bitən il |
|---|---|---|---|
| Əqdlər üzrə komissiya gəlirləri | 3 | 81,161 | 99,678 |
| Dividend gəliri | | 15,000 | 15,225 |
| **Cəmi gəlirlər** | | **96,161** | **114,903** |
| Əmək haqqı və işçilərlə bağlı digər ödənişlər | 4 | (67,123) | (59,335) |
| Ümumi və inzibati xərclər | 5 | (23,148) | (26,197) |
| Köhnəlmə və amortizasiya | 10,11 | (1,496) | (1,496) |
| İnvestisiya qiymətli kağızlarının satışından əldə edilən gəlir | | - | 60,105 |
| **Cəmi əməliyyat xərcləri** | | **(91,767)** | **(26,923)** |
| **Əməliyyat mənfəəti** | | **4,394** | **87,980** |
| Faiz gəlirləri | 6 | 54,194 | 51,589 |
| Məzənnə fərqi üzrə zərər | | - | (105) |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **58,588** | **139,464** |
| Mənfəət vergisi xərci | 7 | (9,341) | (24,855) |
| **İl üzrə mənfəət** | | **49,247** | **114,609** |
| **Digər ümumi gəlir** | | | |
| Digər ümumi gəlirdə ədalətli dəyərlə əks etdirilən kapital qiymətli kağızları üzrə gəlirlər | 9 | - | 105,000 |
| Digər ümumi gəlirin komponentlərinə aid olan mənfəət vergisi | 7 | - | (21,000) |
| **İl üzrə digər ümumi gəlir, vergidən sonra** | | **-** | **84,000** |
| **İl üzrə cəmi ümumi gəlir** | | **49,247** | **198,609** |

İdarə Heyəti tərəfindən:

Cənab Tural Bayramov

İcraçı Direktor
Bakı, Azərbaycan Respublikası

27 mart 2023-cü il

## 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabat
***(Azərbaycan manatı ilə)***

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8 | 35,743 | 23,532 |
| Əvvəlcədən ödənilmiş vergilər | | 8,504 | 6,318 |
| Digər aktivlər | | 4,825 | 14,971 |
| **Cəmi cari aktivlər** | | **49,072** | **44,821** |
| **Uzunmüddətli aktivlər** | | | |
| İnvestisiya qiymətli kağızları | 9 | 884,750 | 867,556 |
| Əmlak və avadanlıq | 10 | 960 | 1,440 |
| Qeyri-maddi aktivlər | 11 | 5,230 | 6,246 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **890,940** | **875,242** |
| **CƏMİ AKTİVLƏR** | | **940,012** | **920,063** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR** | | | |
| **Cari öhdəliklər** | | | |
| Cari mənfəət vergisi öhdəliyi | | - | 22,638 |
| Digər öhdəliklər | 12 | 6,239 | 12,797 |
| **Cəmi cari öhdəliklər** | | **6,239** | **35,435** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 7 | 19,969 | 20,071 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **19,969** | **20,071** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **26,208** | **55,506** |
| **KAPİTAL** | | | |
| Səhmdar kapitalı | 13 | 420,000 | 420,000 |
| Bölüşdürülməmiş mənfəət | | 409,804 | 360,557 |
| İnvestisiya qiymətli kağızları üzrə realizasiya olunmamış gəlir | | 84,000 | 84,000 |
| **CƏMİ KAPİTAL** | | **913,804** | **864,557** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **940,012** | **920,063** |

İdarə Heyəti tərəfindən:

Cənab Tural Bayramov

İcraçı Direktor
Bakı, Azərbaycan Respublikası

27 mart 2023-cü il

# "Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti

## 31 dekabr 2022-ci il tarixinə bitən il üzrə kapitalda dəyişikliklər haqqında hesabat
*(Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət / (yığılmış zərər) | İnvestisiya qiymətli kağızları üzrə realizasiya olunmamış gəlir | Cəmi kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il** | **420,000** | **245,948** | **-** | **665,948** |
| İl üzrə mənfəət | - | 114,609 | - | 114,609 |
| İl üzrə digər ümumi gəlir | - | - | 84,000 | 84,000 |
| **31 dekabr 2021-ci il** | **420,000** | **360,557** | **84,000** | **864,557** |
| İl üzrə mənfəət | - | 49,247 | - | 49,247 |
| **31 dekabr 2022-ci il** | **420,000** | **409,804** | **84,000** | **913,804** |

İdarə Heyəti tərəfindən:

Cənab Tural Bayramov

İcraçı Direktor
Bakı, Azərbaycan Respublikası

27 mart 2023-cü il

## "Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti

**31 dekabr 2022-ci il tarixinə bitən il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
***(Azərbaycan manatı ilə)***

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixinə bitən il | 31 dekabr 2021-ci il tarixinə bitən il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti:** | | | |
| **Mənfəət vergisindən əvvəl mənfəət / (zərər)** | | **58,588** | **139,464** |
| Düzəlişlər: | | | |
| Hesablanmış alınacaq faizlər gəliri | | 2,597 | 10,099 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 11 | 1,016 | 1,016 |
| Əmlak və avadanlığın köhnəlməsi | 10 | 480 | 480 |
| Məzənnə fərqi üzrə zərər | | - | 105 |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən yaranan nağd pul vəsaiti hərəkətləri** | | **62,681** | **151,164** |
| **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər:** | | | |
| Kredit təşkilatlarından alınacaq məbləğlərdə azalma / (artma) | | - | - |
| Digər aktivlərdə azalma / (artma) | | 10,146 | 13,372 |
| Əvvəlcədən ödənilmiş vergilərdə (artma) / azalma | | (2,186) | (6,318) |
| Digər öhdəliklərdə (azalma) / artma | | (6,558) | (6,205) |
| **Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən əldə edilən pul vəsaitləri** | | **64,083** | **152,013** |
| Ödənilmiş mənfəət vergisi | | (32,081) | (5,749) |
| **Əməliyyat fəaliyyətindən əldə edilən xalis pul vəsaitləri** | | **32,002** | **146,264** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti:** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | 10,11 | - | - |
| İnvestisiya qiymətli kağızlarının alınması | | (92,600) | (529,405) |
| İnvestisiya qiymətli kağızlarının satışından mədaxil | | 72,809 | 403,058 |
| **İnvestisiya fəaliyyətlərindən yaranan xalis nağd pul vəsaitlərinin məxarici** | | **(19,791)** | **(126,347)** |
| **Maliyyə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti:** | | | |
| Adi səhmlərin buraxılması | | - | - |
| Xarici valyuta dərəcəsinin dəyişməsinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | - | (105) |
| **Maliyyə əməliyyatlarından yaranan xalis nağd pul vəsaitlərinin (məxarici ) / mədaxili** | | **-** | **(105)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma / (azalma)** | | **12,211** | **19,812** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | | 23,532 | 3,720 |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | 8 | **35,743** | **23,532** |

İdarə Heyəti tərəfindən:

Cənab Tural Bayramov

İcraçı Direktor
Bakı, Azərbaycan Respublikası
27 mart 2023-cü il

## 1. Ümumi məlumat

### Şirkət və onun əsas fəaliyyəti

"Xalq Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti ("Şirkət") 17 avqust 2007-ci il tarixində təsis edilmişdir və Azərbaycan Respublikasında məskunlaşır.

Şirkətin əsas fəaliyyəti - Bütün növ qiymətli kağızların investisiya əməliyyatlarının təşkil edilməsidir. Şirkət Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilən lisenziya əsasında "Xalq Kapital" MMC-nin hüquqi varisi kimi 2017-ci ilin iyun ayından fəaliyyətini davam etdirir.

### Qeydiyyatdan keçmiş ünvanı və fəaliyyət yeri

Şirkətin rəsmi qeydiyyatdan keçmiş hüquqi ünvanı belədir: Azərbaycan Respublikası, Bakı, AZ1006, İnşaatçılar prospekti, 22 L.

### Şirkətin səhmdarları

31 dekabr 2022 və 2021-ci il tarixlərində Şirkətin səhmdarları aşağıdakılar idi:

| | 31 dekabr 2022-ci il, % | 31 dekabr 2021-ci il, % |
|---|---|---|
| "Xalq Bank" ASC | 100 | 100 |
| **Cəmi** | **100** | **100** |

### Şirkətin əməliyyat mühiti

Ölkədə iqtisadi meyllərdə irəliləyişlər olarkən, Azərbaycan Respublikası üzə çıxan bazarın xüsusi xarakterlərini göstərməyə davam edir. Bu xüsusiyyətlər Azərbaycan Respublikasından kənarda bir çox ölkələrdə sərbəst dönərli olmayan, məhdud valyuta nəzarəti və nisbətən yüksək inflyasiyanı daxil edir, lakin bunları mövcudluğu ilə məhdudlaşmır. Azərbaycan Respublikasında ən çox dəyişən şərhli və tez-tez dəyişikliklər olan vergi, valyuta və gömrük qanunvericiliyidir.

Azərbaycan Respublikasının gələcək iqtisadi istiqaməti geniş şəkildə iqtisadi, maliyyə və monetar ölçülərin hökümət tərəfindən vergi, hüquqi qanunvericilik və siyasi inkişafın öhdəsinə götürülməsindən asılıdır.

## 2. Əsas mühasibat uçotu siyasətləri

### Hesabatların uyğunluğunun bəyanatı

Şirkətin hazırkı maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Fəaliyyətin fasiləsizliyi prinsipi

Bu maliyyə hesabatları Şirkətin fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

### Təqdimatın digər əsasları

Bu maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Bu maliyyə hesabatları, maliyyə alətlərinin ədalətli dəyərdə tanınması və satıla bilən maliyyə alətlərinin yenidən qiymətləndirilməsi əsasında, ilkin dəyər prinsiplərinə əsasən hazırlanmışdır.

Şirkət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və hesabatlara MHBS-na uyğunlaşdırılmaq məqsədilə düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

Əsas mühasibat prinsipləri üzrə xülasə aşağıda təqdim edilir:

### Gəlir və xərclərin tanınması

Gəlir iqtisadi faydanın Şirkətə gələcəyi təqdirdə və gəlirin etibarlı ölçülə bilindiyi halda tanınır. Xərclər çəkildiyi zamanda tanınır. Gəlirin tanınmasından əvvəl aşağıdakı xüsusi tanınma şərtləri də ödənməlidir:

- Əqdlər üzrə komissiya (ticarət əlaqəli və ya xidmət) gəlirləri uyğun xidmətin göstərildiyi zamanda tanınır;
- Faiz gəlirləri və faiz xərcləri məcmu gəlir hesabatında hesablama metodu əsasında effektiv faiz dərəcəsi ilə tanınır;
- Bütün digər gəlirlər və xərclər hesablama metodu əsasında tanınır.

Effektiv faiz dərəcəsi qiymətləndirilmiş gələcək pul ödənişlərini və ya əldə etmələrini (effektiv faiz dərəcəsi, əməliyyat xərci və digər mükafatlar və güzəştlərin tərkib hissəsi olan bütün ödənilmiş və əldə edilmiş haqlar daxil olmaqla) maliyyə alətinin gözlənilən istifadə müddəti vasitəsilə və ya müvafiq hallarda, maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin xalis balans dəyərinə qısa dövrdə dəqiq diskontlaşdırır.

Eyni zamanda, maliyyə aktivi və ya oxşar maliyyə aktivləri qrupu dəyərdəndüşmə zərəri nəticəsində tam silindiyi (bir hissəsinin silindiyi) halda, dəyərdəndüşmə zərərini ölçmək üçün pul vəsaitlərini diskontlaşdıran faiz dərəcəsi istifadə olunmaqla faiz gəliri tanınır.

Ədalətli dəyəri ilə olan aktivlərdən qazanılan faiz, faiz gəlirində təsnifləşdirilir.

**Ədalətli dəyərin ölçülməsi**

Şirkət maliyyə alətlərini mənfəət və ya zərərdə ədalətli dəyərlə (MZƏD) və digər ümumi gəlirdə ədalətli dəyərlə (DÜGƏD), qeyri-maliyyə aktivləri kimi təsnifləşdirilən investisiya əmlakını isə hər bir balans tarixində ədalətli dəyərdə ölçür.

Ədalətli dəyər ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyatlar zamanı aktivin satılmasından alına bilən və ya öhdəliyin köçürülməsinə görə ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- Aktivin və ya öhdəliyin əsas bazar; və ya
- Əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

Şirkətin əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülməlidir və bu zaman ehtimal edilməlidir ki, bazar iştirakçıları öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər. Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya həmin aktivi maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Şirkət mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

Maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktivlər və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

- Səviyyə 1 – oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda bazar qiymətləri (təshih edilməmiş) mövcud olanlar;
- Səviyyə 2 – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları;
- Səviyyə 3 – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Şirkət hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

**Maliyyə aktivləri və öhdəlikləri**

***İlkin tanınma***

*Tanınma tarixi*

Maliyyə aktivlərinin və öhdəliklərinin müntəzəm şəkildə alınması və satılması sövdələşmə tarixindən, yəni maliyyə aktivi və ya öhdəliyinin satın alınması üçün Şirkətin öz üzərinə öhdəlik götürdüyü andan başlayır. Müntəzəm satınalmalar və ya satışlar maliyyə aktivlərinin və öhdəliklərinin alışı və satışıdır ki, bu da bazarda tənzimləmə və ya konvensiya ilə müəyyənləşdirilmiş zaman ərzində maliyyə aktivlərinin və öhdəliklərinin çatdırılmasını tələb edir.

***İlkin ölçmə***

Maliyyə alətlərinin ilkin tanınmada təsnifatı onların müqavilə şərtlərindən və maliyyə alətlərini idarə etmək üçün biznes modelindən asılıdır. Maliyyə alətləri ilkin olaraq bazar dəyərilə ölçülür və MZƏD-də qeydə alınmış maliyyə aktivləri və maliyyə öhdəlikləri istisna olmaqla, bu məbləğə əməliyyat xərcləri ya əlavə edilir və ya çıxılır.

*Maliyyə aktivləri və öhdəliklərinin ölçü növləri*

Şirkət özünün bütün maliyyə aktivlərini onların idarə etmək üçün biznes modelinə və aktivin müqavilə şərtlərinə uyğun təsnif edir:

- Amortizasiya hesablanmış dəyərlə;
- DÜGƏT;
- MZƏD.

Şirkət öz derivativini və ticarət portfelini MZƏD-ə uyğun təsnif edir və ölçür. Şirkət maliyyə alətlərini MZƏD-də təyin edə bilər, və belə edərsə, hesablamada və ya identifikasiyada uyğunsuzluqları aradan qaldırır ya da əhəmiyyətli dərəcədə azaldır.

Kredit öhdəliklərdən və maliyyə təminatlarından başqa maliyyə öhdəlikləri satış üçün saxlanıldıqda amortizasiya olunmuş dəyərlə və ya MZƏD üzrə ölçülür və onlar törəmə maliyyə alətləri hesab edilir və ya onlara real bazar qiyməti tətbiq edilir.

*Kredit təşkilatlarından alınacaq vəsaitlər, müştərilərə verilmiş kreditlər, amortizasiya hesablanmış dəyərlə investisiya qiymətli kağızları*

Şirkət ancaq kredit müəssisələrindən daxil olmalı olan məbləğləri, müştərilərə veriləcək kreditləri və digər maliyyə investisiyalarını əgər aşağıdakı hər iki şərtlər ödəniləcəksə amortizasiya hesablanmış dəyərlə ölçür:

- Maliyyə aktivini qaydada saxlamaq və müqavilə şərtləriylə nəzərdə tutulmuş nəqd pul axınını toplamaq üçün maliyyə aktivləri bizness modeli çərçivəsində saxlanılır;
- Maliyyə aktivinin müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə pul vəsaitlərinin axınına səbəb olur və yalnız əsas məbləğin və faizin ödənilməsini (YƏMFÖ) ehtiva edir.

Bu şərtlərin detalları aşağıdakı kimi göstərilmişdir.

*Biznes modelinin qiymətləndirilməsi*

Şirkət öz biznes modelini elə bir səviyyədə müəyyən edir ki, biznes məqsədinə nail olmaq üçün maliyyə aktivləri qruplarını necə idarə etdiyini yaxşı əks etdirən səviyyəyə nail olsun.

Şirkətin biznes modeli maliyyə alətlərini individual əsasda deyil, maliyyə portfellərinin yüksək səviyyədə və müşahidə edilən aşağıdakı faktorlar üzrə qiymətləndirilir:

- Biznes modelinin və bu biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin idarə edilməsi necə qiymətləndirilir və müəssisənin əsas idarəetmə personalına məruzə edilir;
- Biznes modelinin (və biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) icrasına mənfi təsir edən risklər və xüsusən də bu risklərin idarə olunması yolları;
- Bizines menecerləri necə kompensasiya edilir (məsələn, kompensasiya idarə olunan aktivlərin ədalətli dəyərinə və ya müqavilə üzrə toplanmış nəqd pul vəsaitlərinin hərəkətinə əsaslanır);
- Satışların gözlənilən tezliyi, dəyəri və vaxtı Şirkətin qiymətləndirməsində mühüm aspektlərdir.

Biznes modelinin qiymətləndirilməsi "ən pis vəziyyət" və "stress vəziyyəti" ssenarilərini nəzərə almadan, əsasən gözlənilən ssenarilərə əsaslanır. İlkin tanınmadan sonra pul vəsaitlərinin hərəkəti Şirkətin ilkin gözləntilərindən fərqli bir şəkildə həyata keçirilərsə, Şirkət, həmin biznes modelində saxlanılan qalan maliyyə aktivlərinin təsnifatını dəyişmir, lakin yeni əldə edilmiş və ya yeni alınmış maliyyə aktivlərini qiymətləndirərkən bu məlumatları birləşdirərək irəli gedir.

*YƏMFÖ testi*

Təsnifat prosesinin ikinci bir addımı olaraq, Şirkət maliyyə aktivinin müqavilə şərtlərini YƏMFÖ testinə cavab verib verməməsini müəyyənləşdirmək üçün qiymətləndimə aparır.

İlkin tanınmada bu testin "əsas" məqsədi maliyyə aktivinin real bazar qiyməti ilə müəyyən olunmasıdır və maliyyə aktivinin müddəti boyunca dəyişə bilər (məsələn, əgər kreditin ödənilməmiş və ya mükafatın/endirimin amortizasiyası varsa).

Kreditləşmə razılaşması daxilində faizlərinn ən əhəmiyyətli elementləri adətən pul və kredit riskinin vaxt dəyərinə aiddir. YƏMFÖ qiymətləndirməsi etmək üçün, Şirkət mühakimə yürüdərək uyğun faktorlar, məsələn valyuta hansı maliyyə aktivində göstərilib və faiz dərəcəsinin müəyyənləşdirildiyi dövrü nəzərdən keçirir.

Əksinə, risklərə ən cüzi meylliyi olan müqavilə şərtləri, yaxud müqavilə üzrə nəqd pul vəsaitlərinin axınında qeyri-sabitlik hansı ki, əsas kredit müqaviləsiylə əlaqəli deyil və müqavilə üzrə nəğd pul vəsaitlərinin axınına səbəb olmur və sırf əsas məbləğin və qalıq məbləğ üzrə faizlərin ödənişini nəzərdə tutur. Belə hallarda maliyyə aktivinin MZƏD-lə ölçülməsi tələb olunur.

*DÜGƏD-lə borc alətləri*

Şirkət MHBS 9 adı altında yeni borc alətləri kateqoriyası tətbiq edir ki, bu da aşağıdakı hər iki şərt yerinə yetirildikdə DÜGƏD ilə ölçülür:

- Qiymətli kağız biznis modeli çərçivəsində saxlanılır və bunun məqsədi müqavilə üzrə həm nəqd pul axınına və maliyyə aktivlərini satmağa nail olmaqdır;
- Maliyyə aktivinin müqavilə şərtləri YƏMFÖ testinə uyğundur.

DÜGƏD borc alətləri nəticədə ümümi gəlirdə bazar qiymətində, gəlirlər və itkilər nəzərə alınmaqla hesablanır. Faiz üzrə gəlir və xarici valyuta mübadiləsindən əldə edilən mənfəət və zərərlər amortizasiya hesablanmış dəyərlə ölçülən maliyyə aktivi kimi mənfəət və zərərdə tanınır. Balansdan silmə baş verərsə, öncədən digər ümumi gəlirdə (DÜG) tanınmış məcmu mənfəət və ya zərər, DÜG-dən mənfəət və ya zərər kimi təsnif edilir.

DÜGƏD-də ölçülən GKZ üzrə borc alətləri maliyyə aktivlərinin cari balans dəyərini maliyyə vəziyyəti barədə bəyanatda azaltmır və bazar qiyməti dəyərində qalır. Əvəzində, aktivin amortizasiya hesablanmış dəyərlə ölçülməsi halında yaranacaq ehtiyata bərabər olan məbləğ, DÜG-də mənfəət və ya zərərə müvafiq ayırma yığılmış dəyərsizləşmə məbləği olaraq tanınır. DÜG-də tanınmış yığılmış zərərlər, aktivin balansdan silinməsi zamanı mənfəət və zərər hesabına qaytarılır.

*DÜGƏD-lə kapital maliyyə alətləri*

İlkin tanınmada Bank bəzi hallarda 32 saylı "Maliyyə alətləri: Təqdimat" adlı MUBS əsasında kapital tərifinə uyğun olan bəzi kapital investisiyalarını ticarət üçün saxlanılan alətlər kimi deyil, DÜGƏD ilə kapital alətləri kimi təsnif etmək üçün yekun seçim edir. Belə təsnifat alətlər üzrə fərdi şəkildə müəyyən edilir.

Bu kapital alətləri üzrə gəlir və zərərlər heç zaman mənfəət və ya zərərə yenidən təsnifləşdirilmir. Ödəmə hüququ müəyyən edildə, dividendlər mənfəət və ya zərərdə digər gəlir kimi tanınır, lakin Bank alətin dəyərinin bir hissəsinin qaytarılması olan belə daxilolmalardan faydalanırsa, bu halda belə gəlirlər DÜG-də tanınır. DÜGƏD ilə kapital alətləri üzrə dəyərsizləşmənin qiymətləndirilməsi aparılmır. Bu alətlər silinəndə, yığılmış yenidən qiymətləndirmə ehtiyatı bölüşdürülməmiş mənfəətə köçürülür.

**Maliyyə aktivləri və öhdəliklərinin yenidən təsnif edilməsi**

Şirkət maliyyə aktivlərini idarə etmək üçün biznes modelini dəyişdiyi müstəsna hallar istisna olmaqla, Şirkət maliyyə aktivlərini ilkin tanınmadan sonra yenidən təsnif etmir. Maliyyə öhdəlikləri heç zaman yenidən təsnif edilmir. Şirkət 2021 -ci ildə heç bir maliyyə aktivi və ya öhdəliyini yenidən təsnif etməmişdir.

**Maliyyə aktivlərinin və öhdəliklərinin uçotdan çıxarılması**

*Maliyyə aktivləri*

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri qrupunun bir hissəsi) aşağıdakı hallarda uçotdan çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının vaxtı başa çatmışdır;
- Şirkət özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya aktivdən pul vəsaitlərini almaq hüququnu saxlayaraq, üzərinə aktivdən pul vəsaitlərini "tranzit" razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və
- Şirkət: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş: (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürməmiş və ya özündə saxlamamış; lakin onlar üzrə nəzarət hüququnu köçürmüşdür.

Şirkət aktivdən pul vəsaitləri hərəkətini almaq hüququnu köçürmüş və aktiv üzrə risk və səmərələrin əksəriyyətini nə köçürməmiş, nə onları özündə saxlamamış, nə də aktiv üzrə nəzarət hüququnu köçürməmişdirsə, aktiv, Şirkətin həmin aktivdə davam edən iştirakı müqabilində əks etdirilir. Köçürülmüş aktiv üzrə zəmanət formasında aktivdə iştirakın davam etməsi aktivin ilkin balans dəyəri ilə Şirkətdən tələb oluna biləcək maksimal ödəniş məbləğindən az olanı ilə ölçülür.

Aktivdə iştirak, köçürülmüş aktiv üzrə yazılı və/və ya satın alınmış opsion (o cümlədən nağd hesablaşma əsaslı opsion və ya analoji alət) formasında davam edirsə, Şirkətin davam edən iştirakının həddi köçürülən aktivin Şirkət tərəfindən geri alınacaq dəyərinə bərabərdir. Lakin ədalətli dəyərlə qiymətləndirilən aktiv üzrə yazılı "put" opsionu (o cümlədən nağd hesablaşma əsaslı opsion və ya analoji alət) istisna təşkil edir və bu halda Şirkətin davam edən iştirakının həddi, köçürülən aktivin ədalətli dəyəri və opsionun icra qiymətindən az olanı ilə məhdudlaşır.

*Silinmə*

Maliyyə aktivləri yalnız Şirkət bərpanı dayandırdıqda tam və ya qismən silinir. Silinəcək məbləğ yığılmış kredit ehtiyatından böyükdürsə, fərq ilk öncə ehtiyata əlavə kimi tanınır, sonra isə ümumi balans dəyərinə aid edilir. Sonrakı bərpalar kredit zərəri üzrə xərcin azaldılmasına gətirib çıxarır. Silinmə tanınmanın dayandırılmasının bir növüdür.

*Maliyyə öhdəlikləri*

Maliyyə öhdəliyi müvafiq öhdəlik icra edildikdə, ləğv edildikdə və ya vaxtı başa çatdıqda uçotdan çıxarılır.

Mövcud olan bir maliyyə öhdəliyi eyni kreditor qarşısında tam fərqli şərtlərlə digəri ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtlərinə əhəmiyyətli düzəlişlər edildikdə, belə əvəz etmə və ya düzəliş ilkin öhdəliyin tanınmasının dayandırılmasını və yeni öhdəliyin tanınmasını tələb edir və müvafiq balans dəyərlərindəki fərqlər mənfəət və ya zərərdə əks etdirilir.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə məhdudiyyət qoyulmayan müxbir hesablarda olan qalıqlar aiddir.

**Kredit təşkilatlarından alınacaq məbləğlər**

Kredit təşkilatlarından alınacaq məbləğlər Şirkət tərəfindən banklara birbaşa verilmiş kreditlərdən ibarətdir. Bütün kredit təşkilatlarından alınacaq məbləğlər pul vəsaiti qarşı tərəfə verildikdə tanınır. Onlar amortizasiya olunmuş dəyərdən dəyərdəndüşmə üzrə zərər çıxılmaqla hesablanır. Amortizasiya olunmuş dəyər pul vəsaitinin ədalətli dəyəri əsasında başlanma tarixində bazar qiymətinə istinad etməyə əsaslanır.

Əgər Şirkətin əsas müqavilə şərtlərinə uyğun olaraq ala bilməməsi üçün obyektiv sübut varsa, kredit təşkilatlarından alınacaq məbləğlərin dəyərdəndüşməsi üçün kredit riski ehtiyatı yaradılır. Ehtiyatın məbləği balans dəyəri və qiymətləndirilmiş bərpa dəyəri arasindakı fərqdir, alətin orijinal effektiv faiz dərəcəsində diskontlaşdırılan gələcək gözlənilən pul vəsaitlərinin cari dəyərini hesablayır.

Dəyərdəndüşmə üzrə ehtiyat məbləği sonradan silinmədən sonra azalırsa, ehtiyatın azalan hissəsi məcmu gəlir hesabatına dəyərdəndüşmə üzrə ehtiyat kimi kredit edilir. Kredit təşkilatlarından alınacaq məbləğlər yığıla bilinməyən olduqda, onlar müvafiq dəyərdəndüşməyə görə ehtiyata hesabına silinir. Belə məbləğlər bütün vacib prosedurlar tamamlandırda və zərərin məbləği hesablandıqdan sonra müəyyən edildikdən sonra silinir. Əvvəllər silinmiş məbləğin sonradan geri ödənilməsi halı gəlir kimi tanınaraq digər gəlirlərə daxil edilir.

Bankda olan depozitlərə görə qazanılan faiz gəliri effektiv faiz metodu ilə hesablanır və məcmu gəlir hesabatında faiz gəliri kimi əks etdirilir.

**Əmlak, avadanlıqlar və qeyri-maddi aktivlər**

Əmlak və avadanlıqlar yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla tarixi dəyəri ilə tanınır.

Tikilməkdə olan və istifadəyə hazır olmayan aktivlər üzrə köhnəlmə aktivin nəzərdə tutulan istifadəyə hazır olduğu tarixdən hesablanır.

Köhnəlmə, əmlak və avadanlıqların qalıq dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla hesablanmış dərəcələrdən istifadə etməklə tətbiq edilir. Təxmin edilən faydalı iqtisadi ömür, qalıq dəyərləri və köhnəlmə/amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı dərəcələrdə tətbiq edilir.

| | |
|---|---|
| Nəqliyyat vasitələri | 7 ildən 8 ilədək |
| Kompüter avadanlıqları | 5 ildən 6 ilədək |
| Mebel və avadanlıqlar | 5 ildən 7 ilədək |
| Qeyri-maddi aktivlər | 5 ildən 10 ilədək |

Təmir və saxlama xərcləri baş verdiyi zaman tanınır və kapitalizasiya kriteriyalarına uyğun gəlməsi halları istisna olmaqla mənfəət və zərər hesablarında əməliyyat xərcləri kimi tanınır.

Ayrıca satın alınmış və müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla tarixi dəyəri ilə tanınır. Amortizasiya qeyri-maddi aktivlərin təxmin edilən faydalı ömrü ərzində düz xətt metodu ilə hesablanır. Təxmin edilən faydalı iqtisadi ömür və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir. Ayrıca satın alınmış və qeyri-müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər isə ilkin dəyərindən dəyərsizləşmə zərərlərinin məbləği çıxıldıqdan sonra alınan məbləğdə tanınır.

Hər bir hesabat dövrünün sonunda Cəmiyyət öz əmlak, avadanlıq və qeyri-maddi aktivlərinin balans dəyərini həmin aktivlərin dəyərsizləşməyə məruz qaldığını göstərən hər hansı bir halın olub-olmadığını müəyyən etmək üçün onu təhlil edir. Əgər bu cür əlamətlər mövcud olarsa, aktivin bərpa edilə bilən məbləği dəyərsizləşmə zərərinin həcmini müəyyən etmək üçün hesablanır. Fərdi aktivin bərpa edilə bilən məbləğini qiymətləndirmək mümkün olmadıqda, Cəmiyyət aktivin aid olduğu pul vəsaitləri yaradan vahidin bərpa edilə bilən məbləğini qiymətləndirir.

Əgər aktivin (pul vəsaitləri yaradan vahidin) bərpa edilə bilən məbləği balans dəyərindən aşağı olarsa, aktivlərin (pul vəsaitləri yaradan vahidin) balans dəyəri öz bərpa edilə bilən məbləğinə qədər aşağı salınır. Müvafiq aktiv üzrə dəyərsizləşmə zərərinin yenidən qiymətləndirmə azalması kimi qəbul edildiyi və bu aktivin yenidən qiymətləndirilmiş dəyərlə uçota alındığı hallar istisna olmaqla, dəyərsizləşmə zərəri dərhal mənfəət və zərər hesablarında tanınır.

Dəyərsizləşmə üzrə zərər sonradan əvəzləşdirilərsə, aktivin (və ya pul vəsaitləri yaradan vahidin) balans dəyəri onun yenilənmiş bərpa edilə bilən məbləğinədək elə artırılırki, artırılmış balans dəyəri əvvəlki illərdə aktivin (və ya pul vəsaitləri yaradan vahidin) dəyərsizləşmə zərərinə məruz qalmayacağı təqdirdə bərabər olacağı balans dəyərindən artıq olmasın. Müvafiq aktiv üzrə dəyərsizləşmə zərərinin yenidən qiymətləndirmə azalması kimi qəbul edildiyi və bu aktivin yenidən qiymətləndirilmiş dəyərlə uçota alındığı hallar istisna olmaqla, dəyərsizləşmə zərəri üzrə əvəzləşdirmə dərhal mənfəət və zərər hesablarında tanınır.

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər tanınması silinmə zamanı və ya aktivin davamlı istifadəsindən heç bir gələcək iqtisadi faydaların yaranmayacağı təqdirdə dayandırılır. Əmlak və avadanlığın xaricolmasından yaranan gəlir və ya itki aktivin balans dəyəri ilə satış gəliri arasındakı fərq kimi göstərilir və mənfəət və zərər hesablarında uçota alınır.

**Vergiqoyma**

Gəlir vergisi xərci, cari vergi öhdəliyi və təxirə salınmış vergidən ibarətdir.

Cari vergi öhdəliyi il üzrə vergiyə cəlb olunan mənfəətə əsaslanır. Vergiyə cəlb olunan mənfəətə digər illərdə vergiyə cəlb olunan və ya tutulan gəlir və xərc maddələrini daxil olmadığına görə o, məcmu gəlir haqqında hesabatdakı xalis mənfəətdən fərqlənir, həmçinin vergiyə cəlb olunan mənfəətə heç vaxt vergiyə cəlb olunmayan və ya tutulmayan maddələr daxil deyil. Cəmiyyətin cari vergi xərcləri hesabat dövrünün sonuna qüvvədə olan vergi dərəcələrini istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq balansda tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri balansda tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və

- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edilsin və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olsun.

Azərbaycan Respublikasında fəaliyyət göstərən şirkətlərin fəaliyyəti nəticəsində digər vergilər də yaranır. Bu vergilər əməliyyat xərclərinin bir hissəsi kimi tanınır və məcmu gəlir hesabatına daxil edilir.

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Cəmiyyət işçilərin əmək haqlarından təqaüd ayırmaları tutur və onları dövlət sosial müdafiə fonduna köçürür. Bu cür ayırmaları hesablayarkən təqaüd sisteminin göstərşlərinə müvafiq olaraq işəgötürənlər tərəfindən cari ödənişlərin hesablanması zamanı işçi heyəti üzrə nəzərdə tutlan ümumi xərclərin müəyyən nisbəti götürülür. Belə xərclər müvafiq əmək haqlarının alındığı dövrlərə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər dövlət sosial müdafiə fondu tərəfindən yerinə yetirilir. Cəmiyyət Azərbaycan Respublikasının dövlət sosial müdafiə fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Cəmiyyətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Şərti aktivlər və öhdəliklər**

Şərti öhdəliklər maliyyə vəziyyəti hesabatında tanınmır amma bu öhdəliklərlə bağlı pul vəsaitlərinin ödənilməsinin ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir. Şərti aktivlər maliyyə vəziyyəti hesabatında tanınmır amma belə aktivlərlə bağlı iqtisadi mənfəətlərin alınması ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

**Nizamnamə kapitalı**

Adi səhmlər kapital bölümündə təsnifləşdirilir. Adi səhmlərin yerləşdirilməsi ilə əlaqədar olan birbaşa əlavə xərclər bütün vergi təsirləri istisna olmaqla kapitalın azaldılması kimi uçota alınır. Adi səhmər üzrə ödənilən dividendlər kapital bölümündə elan olunduğu dövrdə azalma kimi təqdim edilir.

Hesabat tarixindən sonra elan edilmiş dividendlər 10 saylı Beynəlxalq Mühasibat Uçotu Standartına "Hesabat tarixindən sonra baş vermiş hadisələr" ("BMUS 10") müvafiq olaraq maliyyə hesabatlarında açıqlanır.

**Xarici valyutanın çevirilməsi**

Şirkətin əməliyyat valyutası onun fəaliyyət göstərdiyi iqtisadi mühitin valyutası olan Azərbaycan Manatıdır (AZN).

Xarici valyutada olan monetar aktiv və öhdəliklər, balans tarixində mövcud olan ARMB-nın valyuta əzənnəsinə uyğun olaraq Azərbaycan Manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir. Bu çevrilmələr zamanı yaranan gəlir və xərclər mənfəət və zərər hesabında xarici valyuta ilə əməliyyatlar üzrə gəlirlər (zərər çıxılmaqla) ətrində göstərilir

**Valyuta mübadiləsi məzənnələri**

Şirkət ilin sonuna maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| 31 dekabr 2022 | | | 31 dekabr 2021 | | |
|---|---|---|---|---|---|
| 1 ABS Dolları | = | 1.7000 manat | 1 ABS Dolları | = | 1.7000 manat |
| 1 AVRO | = | 1.8114 manat | 1 AVRO | = | 1.9265 manat |
| 1 Funt Sterlinqi | = | 2.0477 manat | 1 Funt Sterlinqi | = | 2.2925 manat |
| 1 Rus Rublu | = | 0.0230 manat | 1 Rus Rublu | = | 0.0229 manat |

**Əhəmiyyətli təxminlər və mühakimələr**

Təsdiq olunmuş uçot standartlarına əsasən hesabatların hazırlanması zamanı müəyyən təxminlər etmək tələb olunur. Bu, həmçinin, Şirkətin rəhbərliyindən uçot siyasətlərinin tətbiqi zamanı öz mühakimələrinə əsaslanmasını tələb edir. Bu təxminlər və mühakimələr davamlı olaraq qiymətləndirilir və onların məqsədə uyğun olmasına nəzarət edilir. Aşağıdakı maddələrdə Şirkətin maliyyə hesabatları üçün əhəmiyyət daşıyan istiqamətlər üzrə müəyyən təxminlər və uçot siyasətlərinin tətbiqində istifadə olunmuş mühakimələr sadalanmışdır.

## 3. Əqdlər üzrə komissiya gəlirləri

Əqdlər üzrə komissiya gəlirləri aşağıdakı qiymətli kağızlar üzrə alqı-satqı əməliyyatlarında əldə edilir:

| | 31 dekabr 2022-ci il tarixinə bitən il | 31 dekabr 2021-ci il tarixinə bitən il |
|---|---|---|
| Azərbaycan Respublikasının Mərkəzi Bankının buraxdığı notlar | 64,132 | 67,752 |
| Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin buraxdığı xəzinə istiqrazları | 7,063 | 3,071 |
| Korporativ səhmlər | 5,055 | 15,890 |
| Korporativ istiqrazlar | 4,911 | 12,965 |
| **Cəmi əqdlər üzrə komissiya gəlirləri** | **81,161** | **99,678** |

## 4. Əmək haqqı və işçilərlə bağlı digər ödənişlər

Əmək haqqı və işçilərlə bağlı digər ödənişlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il tarixinə bitən il | 31 dekabr 2021-ci il tarixinə bitən il |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | (56,300) | (49,887) |
| Sosial sığorta xərcləri | (9,697) | (8,852) |
| İşçilərlə bağlı digər xərclər | (1,126) | (596) |
| **Cəmi işçilər üzrə xərclər** | **(67,123)** | **(59,335)** |

## 5. Ümumi və inzibati xərclər

Ümumi və inzibati xərclər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il tarixinə bitən il | 31 dekabr 2021-ci il tarixinə bitən il |
|---|---|---|
| Üzvlük haqları | (9,800) | (6,200) |
| Peşəkar xidmət haqları | (4,000) | (12,895) |
| Yanacaq xərcləri | (3,042) | (3,475) |
| Ezamiyyət xərcləri | (2,560) | - |
| Rabitə xərcləri | (753) | (455) |
| Ticarət portalından istifadə xərcləri | (720) | (720) |
| Bank xidməti xərcləri | (606) | (833) |
| Digər xərclər | (1,667) | (1,619) |
| **Cəmi ümumi və inzibati xərclər** | **(23,148)** | **(26,197)** |

## 6. Faiz gəlirləri

Faiz gəlirləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il tarixinə bitən il | 31 dekabr 2021-ci il tarixinə bitən il |
|---|---|---|
| İnvestisiyalar üzrə faiz gəlirləri | 54,194 | 51,589 |
| Yerləşdirilmiş depozitlər üzrə faiz gəlirləri | - | - |
| **Cəmi faiz gəlirləri** | **54,194** | **51,589** |

## 7. Mənfəət vergisi

Mənfəət vergisi aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il tarixinə bitən il | 31 dekabr 2021-ci il tarixinə bitən il |
|---|---|---|
| Cari ilin mənfəət vergisi xərci | (9,443) | (25,784) |
| Təxirə salınmış mənfəət vergisi (xərci) / gəliri | 102 | (20,071) |
| Çıxılsın: digər ümumi gəlirdə tanınmış təxirə salınmış mənfəət vergisi | - | 21,000 |
| **Mənfəət vergisi xərci** | **(9,341)** | **(24,855)** |

İl ərzində digər ümumi gəlirə aid edilmiş maddələrlə bağlı olan təxirə salınmış vergi aşağıda təqdim olunur:

| | 31 dekabr 2022-ci il tarixinə bitən il | 31 dekabr 2021-ci il tarixinə bitən il |
|---|---|---|
| DÜG vasitəsilə ədalətli dəyərlə təyin edilmiş kapital investisiyaları üzrə xalis gəlirlər | - | (21,000) |
| **Digər ümumi gəlirə aid edilmiş mənfəət vergisi** | **-** | **(21,000)** |

Effektiv mənfəət vergisi dərəcəsi yerli qanunvericiliyə uyğun mənfəət vergisi dərəcəsindən fərqlənir. Aşağıdakı cədvəldə yerli qanunvericilik əsasında mənfəət vergisi xərci faktiki xərclərlə tutuşdurulur:

| | 31 dekabr 2022-ci il tarixinə bitən il | 31 dekabr 2021-ci il tarixinə bitən il |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl mənfəət** | **58,588** | **139,464** |
| Yerli qanunvericiliyə uyğun olan mənfəət vergisinin dərəcəsi | 20% | 20% |
| **Yerli qanunvericiliyə uyğun dərəcə ilə nəzəri mənfəət vergisi xərci** | **(11,718)** | **(27,893)** |
| **Vergi məqsədləri üçün çıxılmayan və ya qiymətləndirilməyən maddələrin vergiyə təsiri** | | |
| Çıxılmayan xərclər | (623) | (865) |
| Vergidən azad edilən gəlir | 3,000 | 3,903 |
| **Mənfəət vergisi xərci** | **(9,341)** | **(24,855)** |

31 dekabr tarixinə təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri və onların müvafiq illərdə hərəkətləri aşağıda təqdim olunur:

| | | *Müvəqqəti fərqlərin yaranması və ləğv edilməsi* | | | *Müvəqqəti fərqlərin yaranması və ləğv edilməsi* | | |
|---|---|---|---|---|---|---|---|
| | *2020* | *Mənfəət və ya zərər haqqında hesabatda* | *Digər ümumi gəlirdə* | *2021* | *Mənfəət və ya zərər haqqında hesabatda* | *Digər ümumi gəlirdə* | *2022* |
| **Çıxılan müvəqqəti fərqlərin vergiyə təsiri** | | | | | | | |
| Qeyri-maddi aktivlər | - | 110 | - | 110 | 67 | - | 177 |
| Əmlak və avadanlıq | - | 19 | - | 19 | 35 | - | 54 |
| Digər öhdəliklər | - | 800 | - | 800 | - | - | 800 |
| **Təxirə salınmış vergi aktivləri** | **-** | **929** | **-** | **929** | **102** | **-** | **1,031** |
| **Vergiyə cəlb olunan müvəqqəti fərqlərin vergiyə təsiri** | | | | | | | |
| İnvestisiya qiymətli kağızları | - | - | (21,000) | (21,000) | - | - | (21,000) |
| **Təxirə salınmış vergi öhdəlikləri** | **-** | **-** | **(21,000)** | **(21,000)** | **-** | **-** | **(21,000)** |
| **Xalis təxirə salınmış mənfəət vergisi (öhdəlikləri)/aktivi** | **-** | **929** | **(21,000)** | **(20,071)** | **102** | **-** | **(19,969)** |

## 8. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| Cari bank hesabı | 35,743 | 23,532 |
| Digər cari hesablar | - | - |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **35,743** | **23,532** |

Gözlənilən kredit zərərinin (GKZ) ölçülməsi məqsədilə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri qalıqları Mərhələ 1-ə aid edilmişdir. Bu qalıqlar üzrə GKZ məbləği əhəmiyyətli olmadığından Şirkət pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə kredit zərəri üzrə ehtiyat yaratmamışdır.

## 9. İnvestisiya qiymətli kağızları

İnvestisiya qiymətli kağızlarına aiddir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Kapital qiymətli kağızları | 260,400 | 257,800 |
| Borc qiymətli kağızları | 624,350 | 609,756 |
| **Cəmi investisiya qiymətli kağızları** | **884,750** | **867,556** |

31 dekabr 2022 və 2021-ci il tarixlərinə kapital qiymətli kağızlarının balans dəyəri aşağıdakı kimidir:

| DÜGƏD ilə ölçülmüş kapital qiymətli kağızları | Pay % | 31 dekabr 2022-ci il | Pay % | 31 dekabr 2021-ci il |
|---|---|---|---|---|
| "Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti | 4.76 | 240,000 | 4.76 | 240,000 |
| "Boradigah Çay-2" Açıq Səhmdar Cəmiyyəti | 2.55 | 17,800 | 2.55 | 17,800 |
| "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyəti | 0.023 | 2,600 | - | - |
| **Cəmi kapital qiymətli kağızları** | | **260,400** | | **257,800** |

"Bakı Fond Birjası" QSC-nin 25 dekabr 2020-ci il tarixli Səhmdarlarının növbədənkənar ümumi yığıncağına əsasən müəssisənin nizamnamə kapitalı bölüşdürülməmiş xalis mənfəət hesabına adi səhmlərin nominal dəyərinin artırılması qərarı alınmışdır və bunun nəticəsi olaraq Xalq Kapital İnvestisiya şirkətinə məxsus 4.76% payın nominal dəyəri 105,000 AZN qədər artmışdır. Qeyd edilən artım 31 dekabr 2021 -ci il tarixinə bitən il üzrə məcmu gəlirlər haqqında hesabatda öz əksini tapmışdır.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə borc qiymətli kağızlarının balans dəyəri aşağıdakı kimidir:

| Amortizasiya hesablanmış dəyərlə borc qiymətli kağızları | Kupon faizi | 31 dekabr 2022 | Kupon faizi | 31 dekabr 2021 |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən buraxılmış istiqrazlar | 8% | 100,748 | 8% | 175,307 |
| UniBank ASC | 6% | 177,465 | 6% | 178,599 |
| Optimal Elektronika MMC | 12% | 222,987 | 12% | 151,900 |
| TBC BOKT | 12% | 103,117 | 12% | 103,950 |
| Digər müəssisələr tərəfindən buraxılmış istiqrazlar | 11% | 20,033 | - | - |
| | | 624,350 | | 609,756 |
| Dəyərsizləşmə üçün ehtiyat çıxılmaqla | | - | | - |
| **Cəmi borc qiymətli kağızları** | | **624,350** | | **609,756** |

31 dekabr 2022 və 2021-ci il tarixlərinə borc qiymətli kağızlarına daxil edilən hesablanmış faiz gəliri müvafiq olaraq 6,882 AZN və 7,542 AZN təşkil etmişdir.

Gözlənilən kredit zərərinin (GKZ) ölçülməsi məqsədilə investisiya qiymətli kağızları qalıqları Mərhələ 1-ə aid edilmişdir. Bu qalıqlar üzrə GKZ məbləği əhəmiyyətli olmadığından Şirkət investisiya qiymətli kağızlarına kredit zərəri üzrə ehtiyat yaratmamışdır.

Amortizasiya hesablanmış dəyərlə borc qiymətli kağızları üzrə ümumi balans dəyərində dəyişikliklərin təhlili aşağıdakı kimi olmuşdur:

| | 2022 | 2021 |
|---|---|---|
| **1 yanvar tarixinə ümumi balans dəyəri** | **609,756** | **493,509** |
| Alınmış yeni aktivlər | 92,750 | 529,405 |
| Aktivlərin qaytarılması | | |
| - Əsas məbləğ | (73,800) | (15,000) |
| - Faiz məbləği | (58,550) | (47,956) |
| Satılmış aktivlər | - | (401,791) |
| Hesablanmış faiz | 54,194 | 51,589 |
| Məzənnə fərqi | - | - |
| **31 dekabr tarixinə ümumi balans dəyəri** | **624,350** | **609,756** |

## 10. Əmlak və avadanlıq

Şirkət 2020-ci ildə 2,400 AZN məbləğində komputer avadanlığı almışdır ki, onunda 20%-i (480 AZN) illik köhnəlmə xərci olaraq məcmu gəlirlər haqqında hesabatda 2022 və 2021-ci illərdə tanınmışdır. 31 dekabr 2022-ci il tarixinə əmlak və avadanlığın xalis balans dəyəri 960 AZN təşkil edir (2021-ci ildə əmlak və avadanlığın xalis balans dəyəri 1,440 AZN olmuşdur).

## 11. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlərə aiddir:

| | Lisenziya | Proqram təminatı | Digər | Cəmi |
|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixinə ilkin dəyər** | **2,750** | **4,280** | **3,125** | **10,155** |
| Daxilolmalar | - | - | - | - |
| **31 dekabr 2021-ci il tarixinə ilkin dəyər** | **2,750** | **4,280** | **3,125** | **10,155** |
| Daxilolmalar | - | - | - | - |
| **31 dekabr 2022-ci il tarixinə ilkin dəyər** | **2,750** | **4,280** | **3,125** | **10,155** |
| **31 dekabr 2020-ci il tarixinə yığılmış amortizasiya** | **(1,100)** | **(856)** | **(938)** | **(2,894)** |
| İllik amortizasiya xərcləri | (275) | (428) | (312) | (1,015) |
| **31 dekabr 2021-ci il tarixinə yığılmış amortizasiya** | **(1,375)** | **(1,284)** | **(1,250)** | **(3,909)** |
| İllik amortizasiya xərcləri | (275) | (428) | (313) | (1,016) |
| **31 dekabr 2022-ci il tarixinə yığılmış amortizasiya** | **(1,650)** | **(1,712)** | **(1,563)** | **(4,925)** |
| **Xalis balans dəyəri, 31 dekabr 2021** | **1,375** | **2,996** | **1,875** | **6,246** |
| **Xalis balans dəyəri, 31 dekabr 2022** | **1,100** | **2,568** | **1,562** | **5,230** |

## 12. Digər öhdəliklər

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Müştəti əməliyyatlarına görə ticarət təşkilatçıları qarşısında öhtəlik | 2,239 | 8,797 |
| Ödənilməli peşəkar xidmət haqları | 4,000 | 4,000 |
| **Cəmi digər öhdəliklər** | **6,239** | **12,797** |

## 13. Səhmdar kapitalı

31 dekabr 2022-ci il tarixinə Şirkətin təsdiqlənmiş, buraxılmış və tam ödənilmiş səhmdar kapitalı 420,000 manat olmaqla, hər biri 2 manat dəyərində olan 210,000 ədəd adi səhmdən ibarətdir. Bütün səhmlər eyni qüvvəyə və hər biri bir səs hüququna malikdir (2021-ci ildə: 420,000 manat olmaqla, hər biri 2 manat olan 210,000 ədəd adi səhmdən ibarət olmuşdur).

Şirkətin manatla olan səhmdar kapitalı səhmdarlar tərəfindən ödənilmişdir və onlar dividend almaq və hər hansı kapital bölüşdürülməsindən pay almaq hüququna malikdirlər. Azərbaycan Respublikası qanunvericiliyinə əsasən səhmdarların aşağıdakı hüquqları var: Şirkətin rəhbərliyində iştirak, onun icraedici heyətini seçmək və ya o heyətdə seçilmək, Şirkətin fəaliyyətləri barədə məlumat toplamaq, ildə bir dəfə Şirkətin illlik hesabatları ilə tanış olmaq, Səhmdarların Ümumi Yığıncağında iştirak etmək, Şirkətin Səhmdarlarının Ümumi Yığıncağının gündəliyində olan məsələlərə düzəlişləri sorğulamaq, Şirkətin fəaliyyətinin audit olunmasını istəmək və Şirkətin fəaliyyətinin bitirilməsi zamanı kreditorlarla hesablaşmalar və hesablanmış, lakin ödənilməmiş dividentlərin ödənilməsindən sonra Şirkətin aktivlərinin yerdə qalan hissəsindən pay almaq.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə bitən il ərzində Şirkət dividend elan etməmiş və ödəməmişdir.

## 14. Maliyyə və şərti öhdəliklər

### Kapital qoyuluşu öhdəlikləri

31 dekabr 2022 və 2021-ci il tarixlərinə Şirkətin ödənilməmiş kapitallaşdırılmalı xərclərə görə heç bir əhəmiyyətli kapital öhdəlikləri olmamışdır.

### Vergilər

Azərbaycan Respublikasının sahibkarlıq və xüsusən də, vergi qanunvericiliyində maddələrin müxtəlif təfsir dərəcələri yarana bilər. Bundan əlavə, vergi qanunvericiliyi rəhbərlik və vergi orqanları tərəfindən fərqli şəkildə şərh olunduğundan, vergi orqanları tərəfindən əməliyyatlarla bağlı iddialar qaldırıla və nəticədə Şirkət əlavə vergi, penyalar və faiz ödəmək məcburiyyətində qala bilər. Vergi orqanları vergi ödəyicisinin fəaliyyətini yalnız son 3 təqvim ili üzrə yoxlamaq hüququna malikdir. Rəhbərlik hesab edir ki, Şirkət artıq bütün vergi ödəmələrini yerinə yetirib və bu səbəbdən də maliyyə hesabatlarında hər hansı potensial öhdəliklər üzrə heç bir ehtiyat nəzərdə tutulmamışdır.

### Pensiya və təqaüd planları

İşçilər Azərbaycan Respublikasının qanunvericiliyinə və qaydalarına müvafiq olaraq dövlətdən təqaüd müavinətləri alır. 31 dekabr 2022 və 2021-ci il tarixlərinə Şirkətin hazırkı və yaxud keçmiş işçiləri üçün heç bir əlavə təqaüdlər, təqaüd sonrası tibbi xidmət, sığorta və ya kompensasiyalar üzrə öhdəliyi olmamışdır.

## 15. Əlaqəli tərəflərlə əməliyyatlar

BMUS 24 standartına uyğun olaraq əlaqəli tərəflər və ya əlaqəli tərəflər ilə əməliyyatlar dedikdə aşağıdakılar nəzərdə tutulur:

(a) Birbaşa və ya dolayı üsulla bir və ya daha çox vasitəçilərin köməyi ilə nəzarət edən tərəflər və ya Şirkətin nəzarətində saxlanılan, ya da ümumi nəzarətdə olan müəssisələr (Bura ana müəssisələr, filiallar və tabeçilikdə olan müəssisələr aiddir); Şirkətdə paya malik olduğundan Şirkət üzrə əhəmiyyətli təsirə malik olan tərəflər; və Şirkət üzrə birgə nəzarətə malik olan tərəflər;

(b) Əlaqəli müəssisələr – Şirkətin mühüm təsiri altında olan və sərmayəçinin nə filialı, nə də birgə müəssisəsi olmayan müəssisələr;

(c) Şirkətin və ya onun ana müəssisəsinin əsas idarəedici heyətinin üzvləri;

(d) (a) və (c) bəndlərində istinad edilən hər hansı fiziki şəxslərin yaxın ailə üzvləri;

(e) (c) və ya (d) bəndlərində birbaşa və ya dolayı yolla istinad edilən hər hansı fiziki şəxs tərəfindən nəzarət edilən, birgə nəzarət edilən və ya mühüm təsiri olan və ya səsvermədə böyük payı olan müəssisə - tərəflər.

Hər bir əlaqəli tərəflə münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. 31 dekabr 2022 və 2021-ci il tarixlərinə Şirkətin əlaqəli tərəflərlə aşağıdakı əməliyyatları olmuşdur:

| | 31 dekabr 2022 | | 31 dekabr 2021 | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatları üzrə ümumi kateqoriya** | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatları üzrə ümumi kateqoriya** |
| **Pul vəsaitləri və onların ekvivalentləri** | | **35,743** | | **23,532** |
| *Şirkətin Səhmdarları* | *35,743* | | *23,532* | |

31 dekabr 2022 və 2021-ci il tarixlərinə bitən illər ərzində əlaqəli tərəflərlə aparılan əməliyyatlar nəticəsində məcmu gəlirlər haqqında hesabatına daxil edilən məbləğlər aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2022-ci il tarixinə bitən il | | 31 dekabr 2021-ci il tarixinə bitən il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatları üzrə ümumi kateqoriya** | **Əlaqəli tərəflərlə qalıqlar** | **Maliyyə hesabatları üzrə ümumi kateqoriya** |
| **Əqdlər üzrə komissiya gəlirləri** | | **81,161** | | **99,678** |
| *Şirkətin Səhmdarları* | *64,490* | | *68,538* | |
| **Ümumi və inzibati xərclər** | | **(23,148)** | | **(26,197)** |
| *Şirkətin Səhmdarları* | *(606)* | | *(833)* | |
| **Əsas idarəedici heyətin kompensasiyası:** | | **(67,123)** | | **(59,335)** |
| *Qısamüddətli işçi müavinətləri* | *(36,842)* | | *(36,842)* | |

## 16. Maliyyə alətlərinin ədalətli dəyəri

Ədalətli dəyər likvidasiya satışı və ya məcburi satış əməliyyatı deyil, kommersiya əməliyyatı zamanı məlumatlandırılmış tərəflər arasında alətin mübadilə edildiyi məbləğlə müəyyənləşdirilir. Bundan belə nəticə çıxarmaq olar ki, burada təqdim edilmiş göstəricilər Şirkət tərəfindən saxlanılan xüsusi bir maliyyə alətinin açıq bazarda satışından həqiqətən əldə ediləcək qiymətləri əks etdirməyə də bilər.

Maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyərinin Şirkətin maliyyə vəziyyəti haqqında hesabatındakı müvafiq balans dəyəri ilə müqayisəsi aşağıdakı cədvəldə verilmişdir:

| | 31 dekabr 2022 | | 31 dekabr 2021 | |
|---|---|---|---|---|
| | Balans dəyəri | Ədalətli dəyər | Balans dəyəri | Ədalətli dəyər |
| Pul vəsaitləri və onların ekvivalentləri | 35,743 | 35,743 | 23,532 | 23,532 |
| İnvestisiya qiymətli kağızları | 884,750 | 884,750 | 867,556 | 867,556 |

Şirkət qiymətləndirmə üsulu ilə ədalətli dəyərdə görünən maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək və açıqlamaq üçün aşağıdakı iearxiyanı istifadə edir:

- 1-ci mərhələdə ədalətli dəyərin ölçülməsi aktiv bazarda oxşar aktivlər və öhdəliklər üçün təyin edilmiş qiymətdən yaranır;
- 2-ci mərhələdə ədalətli dəyərin ölçülməsi 1-ci mərhələdə olan təyin edilmiş qiymətdən başqa aktiv və ya öhdəliklər üçün birbaşa (məsələn, qiymətlər) və ya dolayı (məsələn, qiymətlərdən yarananlar) yolla müşahidə edilə bilən mədaxillərdən yaranır;
- 3-cü mərhələdə ədalətli dəyərin ölçülməsi müşahidə edilə bilən bazar məlumatları (müşahidə edilə bilməyən mədaxillər) əsasında olmayan aktivlər və öhdəliklərin qiymətləndirmə üsulundan yaranır.

### Ədalətli dəyərlərin müəyyən edilməsində tətbiq olunan üsul və fərziyyələr

Maliyyə alətlərinin qiymətləndirilmiş ədalətli dəyəri mövcud olduğu hallarda bazar məlumatlarını və mövcud qiymətləndirmə üsullarını istifadə etməklə Şirkət tərəfindən müəyyən edilmişdir. Lakin, qiymətləndirilmiş ədalətli dəyəri müəyyən etmək üçün mühakimə bazar məlumatlarını aydınlaşdırmağa vacib tələb olunur. Azərbaycan Respublikası maliyyə bazarlarında fəaliyyətin həcmini məhdudlaşdırmağı davam etmək üçün meydana çıxan bazarın və iqtisadi şərtlərin xüsusiyyətlərini göstərməyə davam edir. Bazar qiymətləndirilməsi vaxtı keçmiş və ya siyahıya alınmış aktivin satışı üzrə əməliyyatı göstərə bilər və buna görə də maliyyə alətlərinin ədalətli dəyərini ifadə etməyə bilər. Rəhbərlik maliyyə alətlərinin ədalətli dəyərini qiymətləndirmək üçün bütün mümkün bazar məlumatlarını istifadə etmişdir.

Təyin edilmiş bazar qiymətlərinin olmadığı yerdə Şirkət qiymətləndirmə üsulundan istifadə edir. Aktiv bazarda qiymətləndirilməyən sərbəst dəyişən faiz dərəcəli alətlərin ədalətli dəyəri onların balans dəyərinə bərabər qiymətləndirilmişdir. Qiyməti təyin edilməyən sabit faiz dərəcəli alətlərin ədalətli dəyəri oxşar kredit riski və qalan bitmə müddəti olan yeni alətlər üçün cari faiz dərəcəsində əldə ediləcək gələcək pul vəsaitlərinin diskontlaşdırılması əsasında qiymətləndirilmişdir.

## 17. Kapitalın idarə olunması

Şirkətin kapitalı idarə etməkdə məqsədləri mülkiyyətçilərə və digər payçılara gəlir gətirmək üçün fəaliyyətin fasiləsizliyini təmin etmək və kapitalın dəyərini azaltmaq üçün kapital strukturunu optimal səviyyədə saxlamaqdır. Kapital strukturunu saxlamaq və ya düzəltmək məqsədilə Şirkət mülkiyyətçilərə verilən dividentə düzəliş edə bilər, mülkiyyətçilərə kapitalı qaytara bilər, nizamnamə kapitalını artıra və ya borcu azaltmaq üçün aktivləri sata bilər.

## 18. Riskin idarə olunması siyasətləri

Şirkət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riski (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi), əməliyyat riski və hüquqi risk baxımından yerinə yetirilir. Maliyyə risklərinin idarə edilməsinin ilkin məqsədləri risk limitlərini müəyyən etmək və daha sonra risk həddinin həmin risk limitləri həddində saxlanmasına əmin olmaqdır. Əməliyyat və hüquqi risklərin idarə edilməsi funksiyaları daxili siyasətlərinin fəaliyyətinin müvafiqliyinə əmin olmağı nəzərdə tutur.

### Kredit riski

Şirkət kredit riskinə məruz qalır, hansı ki, maliyyə alətinin bir iştirakçı tərəfi digər tərəf üçün öhdəliyindən azad etməklə maliyyə zərəri ilə üzləşməsi riskidir.

Şirkət qarşılıqlı tərəflərlər və ya qarşılıqlı tərəflər qrupu ilə əlaqəli qəbul edilmiş risk məbləğləri üçün məhdudiyyət qoymaqla öhdəsinə götürdüyü kredit riskinin səviyyəsini strukturlaşdırır. Kredit riski səviyyəsində məhdudiyyətlər rəhbərlik tərəfindən mütəmadi olaraq təsdiq olunur. Bu cür risklər dövrü əsasda nəzərdən keçirilir və illik və ya daha tez-tez baxılır.

### Maksimum risk

Şirkətin maksimum kredit riskinə məruz qalması əhəmiyyətli dərəcədə dəyişir və həm fərdi, həm də ümumi bazar iqtisadi riskindən asılıdır.

Aşağıdakı cədvəl maliyyə aktivlərinin kredit riskinə maksimum məruz qalmasını göstərir:

| | | | | **31 dekabr 2022** |
|---|---|---|---|---|
| | **Maksimum məruz qalma** | **Əvəzləşdirmədən sonra xalis məruz qalma** | **Qoyulmuş girov / Dövlət zəmanəti** | **Əvəzləşdirmədən və girovdan sonra xalis məruz qalma** |
| İnvestisiya qiymətli kağızları | 884,750 | 884,750 | 100,748 | **784,002** |

| | | | | **31 dekabr 2021** |
|---|---|---|---|---|
| | **Maksimum məruz qalma** | **Əvəzləşdirmədən sonra xalis məruz qalma** | **Qoyulmuş girov / Dövlət zəmanəti** | **Əvəzləşdirmədən və girovdan sonra xalis məruz qalma** |
| İnvestisiya qiymətli kağızları | 867,556 | 867,556 | 175,307 | **692,249** |

Maliyyə aktivləri beynəlxalq agentliklər tərəfindən verilən hazırkı reytinqlərlə səviyyələrə ayrılır. Ən yüksək mümkün reytinq AAA-dır. İnvestisiya qrupu üzrə maliyyə aktivlərinin reytinqi AAA–BBB arasında dəyişir. BBB-dən aşağı reytinqə malik olan maliyyə aktivləri spekulyativ dərəcəli kimi təsnifləşdirilir.

Aşağıdakı cədvəldə Şirkət tərəfindən saxlanılan maliyyə alətlərinin kredit reytinqləri təqdim olunur:

| | 31 dekabr 2022 | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | AAA | AA | A | BBB | < BBB | Reytinqsiz | Cəmi |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | - | - | - | 35,743 | - | **35,743** |
| İnvestisiya qiymətli kağızları | - | - | - | - | 177,465 | 707,285 | **884,750** |

| | 31 dekabr 2021 | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | AAA | AA | A | BBB | < BBB | Reytinqsiz | Cəmi |
| Pul vəsaitləri və onların ekvivalentləri | - | - | - | - | 23,532 | - | **23,532** |
| İnvestisiya qiymətli kağızları | - | - | - | - | 178,599 | 688,957 | **867,556** |

Şirkət Azərbaycan Respublikasında kredit riskinə məruz qalır. Kredit riskinə məruz qalma Şirkətin riskin idarə edilməsi qaydalarında qoyulan kredit hədləri və kredit ödəmə qabiliyyəti haqqında təlimatların pozulmaması üçün müntəzəm şəkildə tənzimlənməlidir.

**Coğrafi təhlil**

Aktivlər, öhdəliklər və kreditlə bağlı təəhhüdlər qarşı tərəfin yerləşdiyi ölkəyə əsasən olmuşdur. Bu yanaşma Şirkətə Azərbaycan Respublikasında investisiya mühitinin dəyişməsindən yaranan potensial zərərləri minimum endirmək üçün imkan verir.

**Likvidlik riski**

Likvidlik riski depozitlərin geri götürülməsi və ödəmə müddəti çatan maliyyə alətləri ilə əlaqədar digər maliyyə öhdəliklərini ödəmək üçün vəsaitlərin kifayət olub-olmaması deməkdir.

Şirkətin likvidliyinin idarə edilməsi öhdəliklərin vaxtı çatdıqda onları ödəyə bilmək üçün likvid aktivlərin səviyyəsinin kifayət qədər olmasını, maliyyə resurslarına keçidin olmasını, maliyyə üzrə gözlənilməz planların olmasını və likvidlik nisbətlərinin qanuni tələblərə uyğunluğunu nəzərə almağı tələb edir.

Likvidlik və faiz dərəcəsi risklərinin təhlili aşağıdakı cədvəldə verilmişdir. Cədvəldə aşağıdakı məlumatlar təqdim olunur:

(i) Şirkətdən ödənişin tələb edilə bildiyi ən yaxın müddətdə maliyyə öhdəlikləri üzrə diskontlaşdırılmamış nağd vəsaitlərin (həm faiz həm də əsas nağd vəsaitlər) hərəkətinə əsaslanan qeyri-törəmə maliyyə aktivlərinin müqavilə üzrə qalan ödəniş müddəti və,

(ii) Şirkət tərəfindən müxtəlif dövrlərdə daxil olması gözlənilən nağd vəsaitlər istisna olmaqla, Maliyyə aktivlərinin diskontlaşdırılmamış ödəniş müddətlərinə habelə, həmin aktivlər üzrə əldə olunacaq faizlərə əsaslanmaqla qeyri-törəmə maliyyə aktivləri üçün gözlənilən ödəniş müddəti.

| | 1 aya qədər | 1 - 3 ay | 3 aydan - 1 ilə qədər | 1 - 5 il | 5 ildən artıq | 31 dekabr 2022 Cəmi |
|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | | |
| İnvestisiya qiymətli kağızları | 20,000 | - | 320,907 | 176,561 | 100,000 | **617,468** |
| **Cəmi faiz hesablanan maliyyə aktivlər** | **20,000** | **-** | **320,907** | **176,561** | **100,000** | **617,468** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 35,743 | - | - | - | - | **35,743** |
| İnvestisiya qiymətli kağızları | 939 | 2,209 | 3,734 | - | 260,400 | **267,282** |
| Digər aktivlər | - | 4,666 | - | - | - | **4,666** |
| **Cəmi maliyyə aktivləri** | **56,682** | **6,875** | **324,642** | **176,561** | **360,400** | **925,159** |
| **Maliyyə öhdəlikləri** | | | | | | |
| Digər öhdəliklər | - | 2,239 | 4,000 | - | - | **6,239** |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **2,239** | **4,000** | **-** | **-** | **6,239** |
| Likvidlik intervalı | 56,682 | 4,636 | 320,642 | 176,561 | 360,400 | |
| Faiz dərəcəsinin həssaslıq intervalı | 20,000 | - | 320,907 | 176,561 | 100,000 | |
| **Faiz dərəcəsinin məcmu həssaslıq intervalı** | **20,000** | **20,000** | **340,907** | **517,468** | **617,468** | |

| | 1 aya qədər | 1 - 3 ay | 3 aydan - 1 ilə qədər | 1 - 5 il | 5 ildən artıq | 31 dekabr 2021 Cəmi |
|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | | |
| İnvestisiya qiymətli kağızları | - | - | 72,809 | 251,721 | 277,684 | **602,214** |
| **Cəmi faiz hesablanan maliyyə aktivlər** | **-** | **-** | **72,809** | **251,721** | **277,684** | **602,214** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 23,532 | - | - | - | - | **23,532** |
| İnvestisiya qiymətli kağızları | - | 7,542 | - | 257,800 | - | **265,342** |
| Digər aktivlər | - | 14,971 | - | - | - | **14,971** |
| **Cəmi maliyyə aktivləri** | **23,532** | **22,513** | **72,809** | **509,521** | **277,684** | **906,059** |
| **Maliyyə öhdəlikləri** | | | | | | |
| Cari mənfəət vergisi öhdəliyi | - | - | 22,638 | - | - | **22,638** |
| Digər öhdəliklər | - | 8,797 | 4,000 | - | - | **12,797** |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **8,797** | **26,638** | **-** | **-** | **35,435** |
| Likvidlik intervalı | 23,532 | 13,716 | 46,171 | 509,521 | 277,684 | |
| Faiz dərəcəsinin həssaslıq intervalı | - | - | 72,809 | 251,721 | 277,684 | |
| **Faiz dərəcəsinin məcmu həssaslıq intervalı** | **-** | **-** | **72,809** | **324,530** | **602,214** | |

**Bazar riski**

Bazar riski Şirkətin məruz qaldığı faiz dərəcəsi riski, valyuta riski və digər qiymət risklərindən ibarətdir. 2022 və 2021-ci illər ərzində Şirkətin riski ölçmək üsulu və ya məruz qaldığı riskdə dəyişiklik olmamışdır.

**Faiz dərəcəsi riski**

Şirkət bazaar vəziyyətinin mənfi dəyişikliklərindən yaranan mümkün zərərlərin dövrü qiymətləndirilməsi vasitəsilə ədalətli dəyərin faiz dərəcəsi riskini idarə edir. Şirkətin İdarə Heyəti Şirkətin cari maliyyə vəziyyətinin monitorinqini aparır, faiz dərəcəsinin ədalətli dəyərinin dəyişməsinə Şirkətin həssaslığını və bunun Şirkətin mənfəətliliyinə təsirini qiymətləndirir.

Aşağıdakı cədvəl "riskin fərqliliyində mümkün dəyişikliklər" əsasında faiz dərəcəsi riskinin həssaslığının təhlilini göstərir. Bu dəyişiklərin səviyyəsi rəhbərlik tərəfindən müəyyən edilir və əsas rəhbər işçilərə risk hesabatları şəklində verilir.

Vergidən əvvəlki mənfəətə təsir:

| | 31 dekabr 2022 | | 31 dekabr 2021 | |
|---|---|---|---|---|
| | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi -1%** | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi -1%** |
| **Maliyyə aktivləri:** | | | | |
| İnvestisiya qiymətli kağızları | 6,100 | (6,100) | 5,938 | (5,938) |
| **Vergidən əvvəlki mənfəətə xalis təsir** | **6,100** | **(6,100)** | **5,938** | **(5,938)** |

**Valyuta riski**

Valyuta riski xarici valyuta kursunun dəyişməsi ilə əlaqədar maliyyə alətinin qiymətinin dəyişməsi kimi müəyyən olunur. Şirkətin bütün aktiv və öhtəlikləri Azərbaycan manatında olduğu üçün heç bir valyuta riskinə məruz qalmır.

**Həssaslıq analizi ilə bağlı məhdudiyyətlər**

Yuxarıdakı cədvəllər digər ehtimallarda dəyişikliklər olmadıqda əsas ehtimalların dəyişməsinin təsirini əks etdirir. Əslində cədvəldə qeyd edilən ehtimallarla digər faktorlar arasında qarşılıqlı əlaqə mövcuddur. Qeyd etmək lazımdır ki, cədvəldəki həssaslıq göstəriciləri xətti funksiya üzrə hesablanmır və valyuta məzənnəsinin daha çox və ya az dəyişməsinə qarşı həssaslığı cədvəldə göstərilən rəqəmlər əsasında birbaşa interpolyasiya və ekstrapolyasiya edilə bilməz.

Həssaslıq analizi Şirkətin aktivlərinin və öhdəliklərinin fəal şəkildə idarə edildiyini nəzərə almır. Bundan əlavə, Şirkətin maliyyə vəziyyəti bazarda dəyişikliklər baş verdikdə dəyişə bilər. Məsələn, Şirkətin maliyyə riskinin idarə edilməsi strategiyası bazardakı dəyişikliklərə qarşı həssaslığın idarə edilməsini nəzərdə tutur. Bazardakı dəyişikliklər müəyyən həddi keçəndə Şirkətin rəhbərliyi bəzi investisiyaları satmaq, investisiya portfelinin strukturunu dəyişdirmək və ya müəyyən sığortalayıcı addımlar atmaq kimi qərarlar həyata keçirə bilər. Nəticədə, ehtimallardakı dəyişikliklər öhdəliklərə heç bir təsir göstərməyə bilər, aktivlər isə maliyyə vəziyyəti haqqında hesabatda bazar qiyməti ilə dəyərləndiriləcək. Belə hallarda aktivlər və öhdəliklər üçün müxtəlif qiymətləndirmə bazasından istifadə edilməsi xalis aktivlərin dəyişməsinə gətirib çıxara bilər.

Yuxarıda qeyd edilən həssaslıq təhlilləri ilə bağlı digər məhdudiyyətlərə aşağıdakılar daxildir: yaxın dövrdə mümkün bazar dəyişiklikləri ilə bağlı hər hansı əminlik olmadan qabaqcadan verilən və yalnız Şirkətin mövqeyini əks etdirən potensial riskin nümayiş etdirilməsi üçün hipotetik bazar dəyişikliklərindən istifadə və bütün faiz dərəcələrinin eyni qaydada hərəkət etməsi ehtimalı.